**“Enerjisistemə qoşulan yeni güclərə görə birdəfəlik ödənişin tətbiqi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 29 iyun tarixli, 143 nömrəli qərarının qismən qüvvədən düşməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Orta və yüksək enerjitutumlu istehsal sahələrinə səmərəli investorların cəlb edilməsini stimullaşdırmaq, kiçik və orta sahibkarlıq sektorunda yeni iş yerləri yaradılması imkanlarını genişləndirmək, elektrik enerjisi istehlakçıları üçün bərabər rəqabət şəraiti təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Enerjisistemə qoşulan yeni güclərə görə birdəfəlik ödənişin tətbiqi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 29 iyun tarixli, 143 nömrəli qərarının 1-ci bəndi, 2-ci bəndinin 1-ci və 2-ci abzasları qüvvədən düşmüş hesab edilsin.

2. “Azərenerji”, “Bakıelektrikşəbəkə”, “Gəncəelektrikşəbəkə”, “Sumqayıtelektrikşəbəkə” və “Əlibayramlıelektrikşəbəkə” səhmdar cəmiyyətlərinə tapşırılsın ki, 2002-ci il 1 yanvar tarixdən enerjisistemə qoşulan yeni güclərə görə birdəfəlik ödənişin tətbiqi dayandırılsın.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 7 yanvar 2002-ci il
1